# Bərdə uğurlu inkişaf yolunda

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə Bərdə rayonuna dəfələrlə səfərə gəlmiş, burada qazanılmış əmək nailiyyətlərindən, zəhmətsevər insanlardan razı qalmış və hər dəfə xoş təəssüratlarla ayrılmışdır. Ulu öndərin vaxtilə söylədiyi “Mən istəyirəm ki, Azərbaycanın qədim paytaxtı, Nizamilərin, Nüşabələrin Bərdəsi qısa müddət ərzində müasir tipli gözəl şəhərə çevrilsin” sözlərini bərdəlilər yaxşı xatırlayır və qürur hissi keçirirlər.**





2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda hesabat verən **Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev** ulu öndərin Bərdə rayonuna və onun əməksevər adamlarına göstərdiyi diqqət və qayğıdan danışaraq vurğuladı ki, müdrik dövlət başçısının yeritdiyi siyasi və iqtisadi kursu novatorcasına davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğısı nəticəsində Bərdə böyük inkişaf yoluna çıxmışdır.

RİH başçısı yığıncaq iştirakçılarına bildirmişdir ki, 2014-cü il rayon üçün uğurlu olmuş, bir sıra iri layihələrin icrasına başlanmışdır. İl ərzində 303.1 milyon manatlıq ümumi məhsul, o cümlədən 12.2 milyon manatlıq sənaye, 139.8 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 6.1 milyon manatlıq nəqliyyat və anbar, 1.1 milyon manatlıq rabitə, 87.5 milyon manatlıq ticarət xidmətləri göstərilmiş, 12.4 milyon nəfər sərnişin və 1 milyon 87 min ton yük daşınmışdır. İqtisadiyyatın inkişafına 56.4 milyon manat əsas kapitala investisiya yönəldilmişdir. Bunun 50.7 milyon manatı və ya 91,6 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir. 2013-cü ilə nisbətən sənaye istehsalı 9,4, kənd təsərrüfatı 8,1, nəqliyyat və anbar təsərrüfatı 5,8, informasiya və rabitə xidmətləri 27,8, ticarət xidmətləri isə 17,7 faiz artmışdır. İl ərzində 347.9 milyon manatlıq və ya keçən illə müqayisədə 17,3 faiz çox genişçeşidli istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Əhaliyə göstərilən iaşə xidmətləri 15,6 faiz artaraq 8.8 milyon manat, pullu xidmətlər 28,7 faiz artaraq 78.6 milyon manat təşkil etmişdir. Dövlət proqramları qəbul olunandan indiyədək 25574 yeni iş yerləri açılmışdır ki, bunların da 12773-ü daimidir. Orta aylıq əmək haqqı keçən ilin müvafiq dövrü ilə müqayisədə 6,5 faiz artaraq 245 manat təşkil etmişdir. Sahibkarlığın inkişaf etdirilməsi üçün SKMF-nin müvəkkil olduğu kredit təşkilatları tərəfindən 2014-cü il ərzində 494 layihə üzrə sahibkarlara 14.8 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələrin həyata keçirilməsi nəticəsində 624 yeni iş yeri yaranmışdır.

Rayonda əkinlərin su ilə təminatını yaxşılaşdırmaq üçün 19 subartezian və artezian quyusu qazılmış və suvarma kanalları lildən təmizlənmişdir. Tərtər çayında 293.2 min manat dəyərində sahilbərkitmə işləri görülmüşdür. İlin quraq və əlverişsiz keçməsinə baxmayaraq əkinlərin 4,8 dəfə suvarılması təmin edilmişdir. Buna görə də sahələrdən bol məhsul götürülmüşdür.

Qeyd etmək lazımdır ki, ötən il turizmin inkişaf etdirilməsi məqsədilə iki ölkə əhəmiyyətli və 17 yerli tarixi abidənin ətrafında abadlıq işləri aparılmış, ad göstəriciləri yeniləşdirilmiş, onlar barədə məlumatlar internet portalında yerləşdirilmişdir. Bərdə şəhərinin mərkəzi küçələri milli memarlıq üslubunda yenidən qurulmuş, şəhərin ad göstəricisi, Bayraq Meydanı, “Qəhrəmanlar” parkı, “Nüşabə” parkı, Seyid Yusif ağanın məqbərəsi kompleks halda inşa edilmiş, rayonun tarixinə həsr olunmuş elmi-praktik konfrans və digər tədbirlər keçirilmişdir. 40 hektar sahədə Heydər Əliyev adına gözəl park-bulvarın tikintisi başa çatdırılmışdır. Rayonun ümumtəhsil məktəblərinin 40 nəfər şagirdi “Azərbaycanı tanıdaq” devizi altında Şəki, Qəbələ və İsmayıllı rayonlarında turist səfərində olmuşdur.





Bərdə RİH-in başçısı Vidadi İsayev məruzəsində vurğuladı ki, yeniyetmə və gənclərlə bağlı 104, idmanla əlaqədar 36 böyük tədbir keçirilmişdir. “Cəsurlar” və “Şahin” hərbi-idman oyunlarının rayon birinciliyi keçirilmiş, zona yarışlarında “Cəsurlar” hərbi-idman növü üzrə I yeri Yeni Daşkənd,”Şahin” hərbi-idman növü üzrə I yeri Gərənə kənd tam orta məktəblərinin komandaları tutaraq mükafatlandırılmış, Gərənə kənd tam orta məktəbinin komandası respublika miqyaslı yarışlarda fərqləndiyinə görə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Hesabat dövründə rayon idmançıları ölkə və beynəlxalq yarışlarda uğurla çıxış edərək müxtəlif miqyaslı yarışlarda 16 qızıl,18 gümüş və 29 bürünc medal qazanmışlar. Rayon uşaq-gənclər idman mərkəzinin direktoru Məmməd Lətifov və sərbəst güləş üzrə məşqçi-müəllim Hümbət Ağayev “Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman işçisi” adına layiq görülmüşlər.

Yığıncaq iştirakşılarının nəzərinə çatdırıldı ki, hesabat dövründə 7747 nəfərə sosial, 3434 nəfərə birdəfəlik müavinətlər, 2016 ailəyə ünvanlı sosial yardım verilmiş, 201 nəfər əlil, tənha və ahıla evlərində sosial xidmət göstərilmiş, 23 nəfər əlilə əlil arabası gətirilmiş, 15 nəfər əlil müalicə üçün sanatoriyalara göndərilmişdir. Təqaüdlər və bütün növ müavinətlər mövcud 16 bankomat vasitəsilə vaxtında ödənilmişdir.

Vidadi İsayev xüsusi vurğulamışdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məruzə və çıxışlarından irəli gələn vəzifələrin operativ qaydada əhaliyə çatdırılması məqsədi ilə yaradılmış təbliğat qrupları yerlərdə, Heydər Əliyev Mərkəzində, müəssisə və təşkilatlarda mütəmadi olaraq görüşlər keçirmələri təmin edilmişdir.

184 nəfərdən ibarət 10 təşviqat qrupu tərəfindən il ərzində 332 görüş keçirilmiş, bu görüşlərdə əhalinin zümrələrindən 16 min 361 nəfər iştirak etmişdir. Heydər Əliyev Mərkəzi rayonun ictimai-siyasi həyatının mərkəzinə çevrilmişdir.

Ulu öndərin zəngin irsinin öyrənilməsi üçün 25 nəfərlik işçi qrupu geniş ictimaiyyətin iştirakı ilə 7 tədbir keçirmişdir. Ümummilli liderlə təmasda olan bərdəlilərin xatirələri, fotoşəkilləri, qəzet materialları, 1969-1982-ci illərdə rayonda nəşr edilən “Kommunizm yolu” (indiki “Bərdə”) qəzetində dərc olunmuş məqalələr toplanmışdır. İl ərzində Heydər Əliyev Mərkəzində 24 tədbir keçirilmiş və mərkəzi 37 min 412 nəfər ziyarət etmişdir.

Hesabat yığıncağında diqqətə çatdırıldı ki, ölkə Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Bərdə Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Hər şey ordu üçün, hər şey Qarabağ üçün” devizi altında keçirilən səhnələşdirilmiş kütləvi tədbir rayon əhalisi tərəfindən böyük rəğbətlə qarşılandı. Bərdə sakinləri vətənpərvərlik nümunəsi göstərərək ordu quruculuğuna töhfə olaraq 21 min manatdan çox vəsait toplamışlar və bu iş davam etməkdədir.

Həmişə olduğu kimi, keçən il də rayon rəhbərliyi vətəndaşların müraciətlərinə, ərizə və şikayətlərinə həssaslıqla yanaşır. 2014-cü ildə rayon icra hakimiyyəti başçısı aparatına 1827 vətəndaş müraciəti daxil olmuşdur. Onların 548-i müsbət həll olunmuşdur. Həyata keçirilmiş tədbirlərin nəticəsidir ki, RİH başçısı aparatına daxil olmuş müraciətlərin sayı 2013-cü ilə nisbətən 32,3 faiz azalmışdır. Qeyd edilməlidir ki, Prezident Administrasiyasından, Milli Məclisdən və Nazirlər Kabinetindən daxil olan vətəndaş müraciətlərinin sayı əhəmiyyətli dərəcədə azalmışdır. İl ərzində RİH başçısı aparatında 12 min 417 nəfər, o cümlədən 1593 nəfər şəxsən başçı tərəfindən qəbul olunmuşdur. Bundan əlavə RİH başçısı yerlərdə 47 qəbul-görüşlər keçirmiş, bu qəbul-görüşlərdə 12 min 800 nəfər sakinin iştirakı təmin edilmiş və 432 nəfərin müraciəti dinlənilmişdir.

Bərdə şəhər bələdiyyəsinin sədri Sadiq Xəlilov, rayon prokuroru Rəhim Əliyev, subartezian quyuları istismarı idarəsinin rəisi Qulu Abışov, təhsil şöbəsinin müdiri Rzaqulu Şərifov məruzə ətrafında çıxış etdilər.

Azərbaycan Respublikası Milli Məclisinin üzvləri Gövhər Baxşəliyeva və Zahid Oruc Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Əflatun Rufiyev tədbirdə çıxış etdilər.

Hesabat yığıncağının sonunda iştirakçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul etdilər.

**Vəli İLYASOV,**
**“Respublika”.**





